# AZƏRBAYCAN SSR-in DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNDƏ MƏDƏNİYYƏTİN DİNAMİK İNKİŞAFI (1970-1985-ci İLLƏR)

N.R.MƏMMƏDOV
*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu*

1970-1985-ci illərdə DQMV-nin ictimai-iqtisadi həyatında olduğu kimi, mədəni və mənəvi həyatında da mühüm irəliləyişlər olmuşdur. Bu dövrdə Dağlıq Qarabağda uşaq müəssisələri, məktəblərin maddi-texniki və təhsil bazası möhkəmlənmiş, tədrisin keyfiyyət səviyyəsi yüksəlmişdir. Əlbəttə DQMV-də bütün bu nailiyyətlərin qazanılması Azərbaycan hökumətinin və onun başçısı H.Ə.Əliyevin şəxsi təşəbbüsü və dərin qayğısı nəticəsində əldə edilmişdir. 1970-1985-ci illərdə Azərbaycan hökuməti DQMV-də təhsil, elm və maarifin inkişafına 260 mlyon 431 min manat vəsait ayırmışdır (1). Bəhs etdiyimiz 15 il ərzində DQMV-də 25 daimi məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verildi və həmin müəssisələrin sayı 60-dan 85-ə çatdı (2, s. 138). 1970-1985-ci illərdə Naxçıvan MSSR-da isə 8 məktəbəqədər uşaq müəssisəsi tikilmiş və həmin müəssisələrin sayı 65-dən 73-ə çatmışdır (3). Aparılan araşdırmalardan məlum olur ki, əhalinin məktəbəqədər uşaq müəssisələri ilə təminatında DQMV-i Ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Belə ki, 1985-ci ildə ümumrespublika səviyyəsində bu göstərici 20 faiz, Naxçıvan MSSR-da 12 faiz, DQMV-də isə 35 faiz olmuşdur (4).

Azərbaycan dövləti 1970-1985-ci illərdə DQMV-də 50 yeni məktəb binası tikib yerli əhalinin istifadəsinə verdi. 1985-ci ildə DQMV-də 34,4 min şagirdi, 3,9 min nəfər müəllimi birləşdirən 205 məktəb fəaliyyət göstərirdi (5). Dövlətimizin vilayətə göstərdiyi dərin qayğını həm də onda görmək olar ki, əhalinin sayı ilə müqayisədə məktəblərin və müəllimlərin sayına görə DQMV-i ümumrespublika səviyyəsini üstələmişdir. Belə ki, DQMV-də hər məktəbə 177 şagird, hər müəllimə 8,5 uşaq düşdüyü halda, Naxçıvan MSSR-da hər məktəbə 296 şagird, hər müəllimə 10 uşaq düşürdü (6). Bəhs etdiyimiz dövrdə DQMV-nin 42 məktəbində şagirdlərə pulsuz isti yemək verilməsi təcrübəsi Azərbaycan SSR Maarif Nazirliyi Kollegiyası tərəfindən bəyənilmiş və yayılmağa başlanmışdır.

1985-ci ildə DQMV-də 6 texnikum və 5 texniki-peşə məktəbi fəaliyyət göstərirdi (7). Ümummilli liderimiz H.Ə.Əliyevin təşəbbüsü ilə 23 noyabr 1973-cü ildə Xankəndi şəhərində Pedaqoji İnstitut açıldı (8, s. 139). Həmin ali təhsil müəssisəsi tədris müəssisələrinin ali təhsilli kadrlara olan tələbatının ödənilməsində böyük işlər gördü. Lakin təəssüflə qeyd etməliyik ki, Dağlıq Qarabağın erməni rəhbərliyi bölgədə azərbaycanlılar yaşayan kəndlərə ögey münasibət göstərmiş, həmin kəndlərdə yeni məktəblər tikilmir, köhnələr təmir olunmur və mövcud məktəblər lazımi avadanlıqlar və ixtisaslı kadrlarla təmin edilmirdi. Hətta vilayətin təhsil idarəsinə rəhbərlik edən erməni millətçiləri Azərbaycan

dilində təhsilin gələcəyinin olmayacağı konsepsiyası ilə çıxış edərək Azərbaycan dilli məktəbləri bağlayırdılar.

1970-1985-ci illərdə Dağlıq Qarabağda yaşayan əhalinin biliyinin, mədəni səviyyəsinin yüksəldilməsində mədəni-maarif müəssisələri də mühüm rol oynamışdı. Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illərdə DQMV-də 52 yeni kütləvi kitabxana tikilib istifadəyə verildi. Bəhs edilən illərdə vilayətdə kitabxanaların sayı 179-dan 231-ə, kitab fondu isə 1 milyon 154 mindən 1 milyon 600 minə çatdı. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, yaşayış məntəqələrinin kitabxana ilə təminatı, adambaşına düşən kitabların və kitabxanaların sayına görə DQMV-də olan göstəricilər həm ümumittifaq, həm də ümumrespublika səviyyəsində birinci yerdə dayanmışdır. Məsələn, 1985-ci ildə Dağlıq Qarabağda hər adama 10,2 kitab düşdüyü halda, Azərbaycan SSR üzrə bu göstərici 5,8-ə, Naxçıvan MSSR-da isə 7,1-ə bərabər idi. Eyni zamanda DQMV-də yaşayış məntəqələrinin kütləvi kitabxanalarla təmin edilməsi 105,6 faiz, ümumrespublika səviyyəsində 94,4 faiz, Naxçıvan MSSR-da 98,4 faiz olmuşdur. Bundan əlavə, əhalinin hər 10 min nəfərinə düşən kütləvi kitabxanaların sayı keçmiş SSRİ məkanında 4,8, Ermənistanda 4,1, Azərbaycanda 6 olduğu halda, Azərbaycan SSR-in DQMV-də 13-ə çatmışdır (9, s. 22-29). Bütün bunlarla yanaşı, DQMV-də azərbaycanlılar yaşayan kəndlərdəki mövcud kitabxanalar Azərbaycandilli ədəbiyyatla tam təmin edilmirdi. Aparılan araşdırmalardan məlum olur ki, vilayətin azərbaycanlılar yaşayan kəndlərindəki kitabxanaların kitablarının 80 faizi erməni dilində, 10 faizi rus dilində, 10 faizi Azərbaycan dilində idi (10, s. 162-164).

Bəhs etdiyimiz illərdə DQMV-də klub tikintisində də böyük irəliləyiş əldə edildi. Azərbaycan hökumətinin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illərdə DQMV-də 69 klub tikilib istifadəyə verildi və klubların sayı 198-dən 267-yə çatdı (11, s. 174, 175). Aparılan araşdırmalardan məlum olur ki, DQMV-i klubların sayına görə ittifaq məkanında birinci yerdə dayanmışdır. Belə ki, əhalinin hər 10 min nəfərinə düşən klubların sayı SSRİ məkanında 4,8, Azərbaycanda 5, Ermənistanda 3,8, Azərbaycanın DQMV-də isə 15-ə bərabər idi (12, s. 62). Eyni zamanda kinoqurğularının sayında və kinoseanslarına baxışın keçirilməsində də DQMV-i birinciliyi əldə saxlamışdır. Belə ki, 10 min nəfər hesabilə əhaliyə düşən kinoqurğularının sayı keçmiş SSRİ məkanında 5,4-ə, Azərbaycanda 3-ə, Ermənistanda 2,9-a, Azərbaycan SSR-in DQMV-də 11,2-yə çatmışdır (13, s. 157). Bununla yanaşı, vilayət əhalisinin kinoseanslarına baxması statistikası da ümumrespublika üzrə birinci yerdə dayanmasını göstərmişdir. Bütün bunlar isə Azərbaycan hökumətinin DQMV-ə göstərdiyi dərin qayğının nəticəsində əldə edilmişdir.

1970-1985-ci illərdə DQMV-də əhali arasında mədəni-maarif işinin aparılmasında muzeylərin də rolu böyük olmuşdur. Dövlətimizin ayırdığı xüsusi vəsait hesabına 1970-1985-ci illər ərzində DQMV-də 6 yeni muzey açıldı. Vilayətdəki muzeylərin sayı 3-dən 9-a çatdı. Bu dövrdə Dağlıq Qarabağda 2 şəkil qalereyası və Bakı muzeylərinin 2 filialı açılmışdı. Muzeyə gələnlərin sayı ilbəil artırdı. Belə ki, 1970-ci ildə DQMV-də muzeyə gələnlərin sayı 35 min nəfər idisə, 1980-ci ildə 103 min nəfərə, 1985-ci ildə isə 130 min nəfərə çatmışdı (14, s. 82).

Ümummilli liderimiz H.Ə.Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda xalqın milli özünüdərk prosesi xeyli geniş-

lənmiş, yaradıcı ziyalılarımız üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdır. H.Ə.Əliyev dövlətimizə rəhbərlik etdiyi illərdə DQMV-nin mədəni tərəqqisinə diqqəti daha da artırdı. 1970-ci illərdə Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. Bunlardan biri Azərbaycan KP MK-nın və Azərbaycan Nazirlər Sovetinin 4 noyabr 1976-cı ildə «Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında» qərarı idi. H.Ə.Əliyev çıxışlarından birində göstərmişdi ki, Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qayğı ilə qorumaq, qədim tikililəri bərpa etmək lazımdır. Qədim Şuşanın memar və nəqqaşlarından Mir Möhsun Nəvvab Qarabaği, Məmmədyar, Usta Qənbər Qarabaği, Məşədi Əliqulu, Qarabağlı Kəblə Əkbər, Məşədi Xaspolad, Kərbəlayi Səfixan Qarabaği və başqa sənətkarların əllərinin məhsulu olan gözəl sənət inciləri – «Gəncə qapısı», «Gövhərağa» məscidi, «Xan qızı» bulağı, İbrahim xanın divanı, Natəvanın, Əsədbəyin, Uğurlubəyin evləri, «Hacı Qulunun malikanəsi», «Mehmandarovların yaşayış kompleksi», «Qara Böyükxanım» qəsri, Mirsiyabovun karvansarası, «Heydər türbəsi», Saatlı məscidi, Qala divarları və digər tarixi abidələr öz milliliyinə və forma müxtəlifliyinə görə Azərbaycan memarlıq mədəniyyəti tarixində özünəməxsus yer tutur. Bunları qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq ən başlıca ümdə vəzifələrdəndir (15, s. 34).

Şuşa ərazisində hər kvadrat kilometrə 327 tarixi abidə düşür. Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il 280 №-li qərarı ilə Şuşa şəhəri Tarixi Arxitektura Qoruğu elan edildi. Həmin qərara görə, Şuşada dövlət tərəfindən qeydə alınan 187 tarixi abidə, 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 məhəllə bulağı, 15 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr, 2 kilsə, qala divarları, 21 sovet dövründə yaradılmış abidə, 987 daş küçə, 190 mühafizə zonası, 9 qala bürcləri qorunmağa və bərpa edilməyə başlandı (16, s. 262-263). Azərbaycanda, 1980-ci illərin sonlarında 6500-dən çox tarix, arxeologiya, memarlıq abidəsi dövlət tərəfindən qorunurdu. Dünya şöhrətli tarixi şəxsiyyət, elmə, sənətə və sənətkara qiymət verən dahi insan H.Ə.Əliyev 12 yanvar 1979-cu ildə Şuşaya gəlmiş və Şuşanın görkəmli tarixi şəxsiyyətlərinin məzarlarını yad etmiş, buradakı tarixi abidələrə baxmışdır. XX yüzilliyin 70-ci illərində H.Əliyevin şəxsi təşəbbüsü ilə Şuşa şəhərinin tarixi abidələri bərpa olunmağa və yeni binalar tikilməyə başladı. 14 yanvar 1982-ci ildə H.Əliyev Azərbaycanın 400-dən çox ədəbiyyat, incəsənət və elm xadimi ilə birlikdə 20 metr hündürlüyündə olan M.P.Vaqifin məqbərəsinin açılışında iştirak etmişdir. Həmin vaxt H.Əliyev Şuşada tarix və mədəniyyət abidələrinə də baxış keçirmiş, bəzi abidələrin bərpası üçün lazımi göstərişlər vermişdir. Burada qısa bir müddətdə Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri açıldı və Natəvanın heykəli qoyuldu. H.Ə.Əliyevin göstərişlərinə əsasən Şuşada böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikildi və Şuşa şəhəri Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 28 iyul 1982-ci ildə H.Ə.Əliyev ailə üzvləri ilə birlikdə Şuşaya gəlir və M.P.Vaqifin poeziya bayramında və bir sıra abidələrin açılışında iştirak edir. Onlardan Vaqifin dərs dediyi mədrəsənin, məscidlərin, şəkil qalereyasının, Üzeyir Hacıbəyovun, X.B.Natəvanın, Bülbülün ev muzeylərinin və başqaların bərpası və təşkilindən razı qaldığını bildirir (17, s. 165-168).

Bəhs etdiyimiz dövrdə DQMV-də tarixi abidələrin tikintisi və bərpası uğurla aparılırdı. Belə tikintilərdən biri də Ağdərə rayonunda erməni əhalisinin xahişi ilə 1978-ci ildə inşa edilmişdir. Həmin abidə ermənilərin Ağdərəyə köçürülməsinin 150 illiyi münasibətilə tikilmişdir. Abidənin üzərinə böyük ölçüdə «1828-1978» və «150» rəqəmləri həkk olunmuşdur. Ancaq bu abidə bəzi «qaranlıq məsələlərə» aydınlıq gətirdiyi üçün ermənilər 1985-ci ildə həmin abidəni dağıtmağa, xüsusilə rəqəmləri yox etməyə başladılar.

1970-1980-ci illərdə DQMV-də mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri teatr idi. Bəhs etdiyimiz dövrdə DQMV-də M.Qorki adına Xankəndi Dram Teatrı fəaliyyət göstərirdi. Həmin teatrla yanaşı DQMV-nin rayonlarında həvəskar dram dərnəkləri də fəaliyyətdə idi.

1970-1985-ci illərdə DQMV-də kütləvi informasiya şəbəkəsi sürətlə inkişaf etmişdi. 1985-ci ildə Vilayətdə 30 milyon nüsxə ilə 8 adda qəzet buraxılırdı. Bunlardan 6-sı erməni dilində, 1-i Azərbaycan, 1-i rus dilində idi.

Beləliklə, 1970-1985-ci illərdə Azərbaycan SSR-in DQMV-də mədəniyyətin inkişafında mühüm dövr oldu. Azərbaycan dövlətinin başçısı Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Dağlıq Qarabağda təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Vilayətin mənəvi sərvəti, kadr potensialı daha da artdı. Dövlətimizin dərin qayğısı nəticəsində DQMV-də mədəniyyət dinamik inkişaf etdi.

**QEYDLƏR**


1. ARDA, f.30, s.9, i.179, v.6,81.
2. Müstəqil Azərbaycan 10 il, Statistik məcmuə, Bakı: 2001.
3. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого октября, Баку: 1987, ст.281.
4. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого октября, Баку: 1987, ст.282.
5. Достижения НКАО в девятой пятилетке. Баку: 1976, с. 131-136.
6. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого октября, Баку: 1987, ст.281.
7. ARDA, f.13, s.14, i.129, v.73.
8. Достижения НКАО в девятой пятилетке.
9. Səmədzadə Z. Dağlıq Qarabağ, naməlum həqiqətlər. 1995.
10. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого октября, Баку: 1987.
11. Müstəqil Azərbaycan 10 il.
12. «Ulduz» jurnalı, Bakı: 1982, №10.
13. «Azərbaycan» jurnalı, Bakı: 1989. №10.
14. Hacıyev Q.N. Dağlıq Qarabağın tarixindən səhifələr. Bakı: 2005.
15. Azərbaycan Sovet Ensiklopediyası. IX cild. Bakı: 1986.
16. Народное хозяйство Азербайджанской ССР к 70 летю ССР.
17. Sovet Dağlıq Qarabağı. Bakı: 1983.
18. Şuşanın keçmişi bu günü və gələcəyi. «Ulduz» jurnalı. Bakı: 1981.
19. «Yurd yeri» jurnalı, Bakı: 1986, №4, s. 80-81.

# ДИНАМИЧНОЕ РАЗВИТИЕ НАГОРНО-КАРАБАХСКОЙ АВТОНОМНОЙ ОБЛАСТИ АЗЕРБАЙДЖАНСКОЙ ССР (1970-1985 гг.)

Н.Р.МАМЕДОВ

**РЕЗЮМЕ**

В статье говорится, что в Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР развитие культуры в 1970-1985 годах являлось особым периодом.

Благодаря дальновидности президента Гейдара Алиева, как результат политики государственного деятеля, была создана нужная возможность развивать образование, науку, прессу, литературу и искусство НКАО Азербайджанской ССР.

В результате нужной заботы динамично развивалась культура НКАО.

# THE DYNAMIC DEVELOPMENT OF CULTURAL IN UPPER GARABAGH AUTONOMOUS PROVINCE OF AZERBAIJAN SSR (1970-1985-S)

N.R.MAMEDOV

**SUMMARY**

The article shows that the period of 1970-1985 was a significant period in the development of culture in UYAP of Azerbaijan SSR. At the conclusion of far-sighted policy of H.Aliyev the head of Azerbaijan the acceptable opportunities were opened on the progress of education, science, press, literature and art in UGAP. The spiritual resources and the personnel potential increased still more. Thanks to the deep care of our government culture in UGAP developed dynamically.